# "Azərbaycan xalqı erməni xislətini bilir"

**Məlum olduğu kimi, oktyabrın 9-da Moskvada Rusiya tərəfinin təşəbbüsü ilə Rusiya Federasiyası, Azərbaycan Respublikası və Ermənistan Respublikasının Xarici İşlər nazirlərinin görüşü keçirilib. On bir saat davam edən görüşün yekunlarında nazirlərin birgə bəyanatı qəbul edilib. Bəyanata əsasən, oktyabrın 10-da saat 12.00-dan etibarən tərəflər humanitar məqsədlərlə Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi və onun kriteriyalarına uyğun olaraq, hərbi əsirlər və digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi üçün atəşkəs elan olunması barədə razılığa gəlinib. Bununla belə qeyd olunub ki, atəşkəs rejiminin konkret parametrləri əlavə olaraq razılaşdırılacaq. Həmçinin Azərbaycan və Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə tənzimlənmənin əsas prinsipləri əsasında münaqişənin tezliklə sülh yolu ilə həlli məqsədilə substantiv danışıqlara başlayırlar və tərəflər danışıqlar formatının dəyişilməzliyini təsdiq ediblər.**

Lakin Ermənistan silahlı qüvvələri razılaşdırılmış humanitar atəşkəs rejiminə əməl etməyərək 11.10.2020-ci il tarixdə gecə saat 02 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çox mənzilli yaşayış binalarını ağır artilleriyadan atəşə tutaraq terror əməllərinə davam ediblər. Nəticədə 4 qadın olmaqla 10 nəfər həlak olmub, 16 qadın, 6 azyaşlı olmaqla 33 nəfər yaralanmış, həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəyib.

Millət vəkilləri Emənistanın növbəti terror aktına münasibət bildiriblər. **Deputat Səməd Seyidov** bildirib ki, nə qədər ki, beynəlxalq ictimaiyyətin öz içlərindəki manqurtlar erməniləri dəstəkləyəcək, o qədər də cinayətlər çox olacaq: "Təkcə BMT-yə deyil, BMT-nin İnsan haqları üzrə komissarlığı, onun tərkibindəki uşaqlarla bağlı fəaliyyət göstərən UNİCEF, eləcə də ATƏT, AP, AŞ kimi beynəlxalq təşkilatlara Gəncədə baş verənlərlə əlaqədar sənədlər göndərəcəyik. Cinayətkarın əlindən tutub onu beynəlxalq məhkəməyə gətirmədinsə, onu ittiham etmədinsə cinayətlər daha əskin və daha ciddi formada davam etdiriləcək. Təəssüf ki, bu münaqişədə bəzi məqamlarda Ermənistana dəstək verməsinin nəticəsi bu gün Gəncədə özünü göstərməkdədir. Fransanın bəyanatı, Almaniya Xarici İşlər Nazirliyinin hansısa fikirləri bu gün Gəncədə özünü göstərməkdədir".



Komitə sədri qeyd edib ki, Azərbaycana qarşı soyqırım siyasəti 1990-cı illərdən faktiki olaraq başlayıb və indiyə kimi də bitmir: "Azərbaycan əsgəri Azərbaycan torpaqlarını işğalçıdan azad edir. Bu sadəcə işğalçıdan yox, Azərbaycan xalqına qarşı soyqırım törədən cinayətkarlardan azad edilir. Biz əlimizdə olan imkanlardan istifadə edib bütün beynəlxalq səviyyədə müraciətlərimizi etməliyik. Bu məsələlər artıq BMT TŞ-da gündəmdədir. Bizim BMT- dəki nümayəndə heyətimiz, səfirlərimiz eləcə də dünya mediası baş verənlərdən agahdır. Söhbət ondan gedir ki, Ermənistan görəndə ki, cəbhədə real məğlubiyyətə uğrayıb, dərhal cinayətlər törətməyə başlayır. Xüsusilə elə cinayətlər törədir ki, o cinayətlər Azərbaycan xalqının hissiyyatına, canına, qanına toxunur. Bunlar insanlığa qarşı cinayətdir".

**Millət vəkili Sevinc Fətəliyeva** isə bildirib ki, Azərbaycanın həm diplomatiya sayəsində, həm də döyüş meydanında əldə etdiyi üstünlük qarşı tərəfdə narahatlığa, təşvişə səbəb olur. Beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı, eyni zamanda, terrorçu dövlət olduğunu tam şəkildə sübuta yetirən yetərincə faktlar mövcuddur. Ermənistanın işğal olunmuş ərazilərdəki qanunsuz hərəkətləri, mülki şəxslərin atəşə tutulması və bu yolla dinc əhaliyə qarşı etdiyi cinayətlər onun terroru, soyqırımını tarix boyu siyasətinin əsas elementi kimi həyata keçirdiyini bir daha sübuta yetirir: "Özləri haqqında "məzlum xalq" obrazı yaratmağa çalışan ermənilər bu gün də dünya ictimaiyyətini qondarma soyqırımı iddiaları ilə çaşdırmağa çalışırlar. Ermənistan, sözün əsl mənasında, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünyanı aldatmağa xidmət edən yalançı manevrlərini işə salaraq, beynəlxalq humanitar hüquq öhdəliklərinin əsas norma və prinsiplərinə etinasızlıq göstərməyə davam etməklə özünü ifşa edir. Ermənistanın təxribat əməllərində yaşayış məntəqələrinin və mülki şəxslərin də hədəfə alınması əsas yer tutur. Bu insanlığa, humanizmə zidd addımlardır. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməl olmaqla, ən ağır beynəlxalq cinayət sayılır. Beynəlxalq humanitar hüququn əsas prinsiplərindən biri mülki şəxslər arasında sərhədin müəyyən edilməsidir. Ermənistanın mülki əhaliyə, eləcə də məsum körpələrə, mülki obyektlərə hücumları beynəlxalq hüququn, insan haqlarının pozulması deməkdir. Xüsusilə, ermənilər Cenevrə Konvensiyasını, uşaq, insan hüquqları üzrə konvensiyaları ciddi şəkildə pozur".

"Gəncədə mülki əhalini atəşə tutan cinayətkar Ermənistan insanlarımızda qorxu yaratmağa çalışır. Hətta bu yolla danışıqlar masasında öz mövqelərimizdən geri çəkilməyi hədəf alıblar". Bu fikirləri isə **Milli Məclisin deputatı Məşhur Məmmədov** bildirib.

M.Məmmədov qeyd edib ki, Ali Baş Komandanın da dediyi kimi biz haqq işimizi görürük və haqq işinin tərəfdarıyıq: "Öz torpaqlarımızın bir qarışını belə düşmənə verməyəcəyik. Hesab edirəm ki, Gəncədə mülki əhaliyə və mülki obyektlərə hücum edən Ermənistan beynəlxalq təşkilatlar qarşısında cavab verməlidir. Baş verənləri dünyaya çatdırmalıyıq. Bizim mülki əhali ilə işimiz yoxdu. Mülki obyektlərə atəş açmırıq. Biz sadəcə olaraq işğalçını öz torpaqlarımızdan qovuruq. Bilirik ki, orada bir çox terror təşkilatının üzvləri var. Suriyadan, Livandan terrorçuları Qarabağa gətirirlər. Bilirik ki, Ermənistan müvəqqəti atəşkəsdən vaxt qazanmağa çalışır. Qanunsuz yolla silahlanmağa cəhd edirlər. İşdə sülh çağırışı edən, əməldə atəşkəsi pozan Ermənistan hər vəchlə yeni təxribatlara əl atmağa davam edir. Beynəlxalq təşkilatlar sözdə sülh tərəfdarı olsalar da, əməldə işğalçı dövləti müdafiə etdikləri aydın görünür.

**Prezidentin köməkçisi Hikmət Hacıyevin də dediyi kimi, sülh danışıqlarına gedən nazirin ölkəsində Ermənistana silah gətirilirsə, hansı sülhdən danışmaq olar?! Bütün bunların hamısı bir daha onu göstərir ki, Ermənistan heç də həmişəki kimi danışıqlara hazır deyil. Sadəcə bu məqamdan özü üçün vaxt və güc qazanmaq istəyir. Onlar heç zaman öz xislətlərindən əl çəkməyəcəklər. Azərbaycan xalqı erməni xislətini bilir. Ordumuz tam hazır vəziyyətdədir. Onların təxribatlarına cavab olaraq ordumuz lazımi addımları atır".**

**Nicat Novruzoğlu**

Ədalət.- 2020.- 13 oktyabr. S. 2.